AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU

AZERBAIJAN INSTITUTE OF THEOLOGY

2018

www.ait.edu.az

# MÜNDƏRİCAT


**Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . 5**
**Nə üçün Aİİ ? . . . . . . . . . . . . . . . . . 6**
**Tariximiz . . . . . . . . . . . . . . . . . . . . 9**
**Missiyamız . . . . . . . . . . . . . . . . . . . 10**
**Məqsədimiz . . . . . . . . . . . . . . . . . . 11**
**Əsas dəyərlərimiz . . . . . . . . . . . . . . 13**
**Akademik təqvim . . . . . . . . . . . . . . . 14**
**Akademik siyasət . . . . . . . . . . . . . . . 19**
Kredit sistemi ilə tədrisin təşkili qaydaları . . 20
Ali təhsil səviyyələri . . . . . . . . . . . . . . . . 22
İxtisas proqramlarına qoyulan tələblər . . . . 24
Qiymətləndirmə sistemi . . . . . . . . . . . . . 30
**İxtisas proqramları . . . . . . . . . . . . . . 33**
Bakalavr ixtisas proqramları . . . . . . . . . . 33
Magistr ixtisas proqramı . . . . . . . . . . . . . 44
**İlahiyyat fakültəsi . . . . . . . . . . . . . . 46**
**Kafedra və şöbələr . . . . . . . . . . . . . . 53**
İslamşünaslıq kafedrası . . . . . . . . . . . . . 54
Dinşünaslıq kafedrası . . . . . . . . . . . . . . 55
Dillər və ictimai fənlər kafedrası . . . . . . . . 56
Tədris şöbəsi . . . . . . . . . . . . . . . . . . . . 58
Magistratura və doktorantura şöbəsi . . . . . . 61
**Beynəlxalq əlaqələr və əməkdaşlıq . . . . 62**
**Tələbələrə dəstək sistemi . . . . . . . . . . 67**
Tələbə elektron məlumat bazası . . . . . . . . 67
Tələbə Gənclər Təşkilatı . . . . . . . . . . . . . 68
Tələbə Elmi Cəmiyyəti . . . . . . . . . . . . . . 69
Tələbələrə maddi dəstək . . . . . . . . . . . . . 70
Kitabxana-informasiya mərkəzi . . . . . . . . . 73
**Tələbə həyatı . . . . . . . . . . . . . . . . . 74**



Cəmiyyətdə dinin rolu gündən-günə artmaqdadır. Bu gün ölkəmizdə gənclərə dini bilikləri dəqiq çatdıra biləcək, dərin elmə, yüksək intellektə, zəngin dünyagörüşünə malik, yeni nəsli düzgün yönləndirəcək peşəkar mütəxəssislərə böyük ehtiyac var.

İlahiyyat, təkcə öz tarixi-mədəni köklərinin dərkinə aparan yol, ona açılan bir qapı deyil. O, eyni zamanda, digər konfessiyalara məxsus insanların mənəvi dəyərlərinə hörmət və tolerant münasibəti öyrədən zəruri elm sahəsidir.

Sürətlə dəyişən dünyamızda ənənəvi dəyərlər qorunub saxlanılmasa, cəmiyyətin dinc həyatına qlobal təhlükə törədən, dövlətin inkişafı yolunda maneələr yaradan, ölkədaxili və beynəlxalq sabitliyin təməlini zədələyən radikal, ekstremistyönlü qruplar bəşəriyyəti məhvə doğru aparacaq. Bu baxımdan, ilahiyyatçılar həm də ictimai təhlükəsizliyin təminatçısı olaraq, cəmiyyətdə bu yöndə baş verə biləcək neqativ halların qarşısını ala bilərlər.

Azərbaycan İlahiyyat İnstitutunun yaradılması müstəqil dövlətçilik tariximizdə din sahəsində qəbul edilmiş ən ciddi qərarlardan biridir. Biz bu məsuliyyətin yükünü anlayır, cənab Prezidentin göstərdiyi etimadı, xalqımızın bizə bəslədiyi inam və ümidi doğrultmaq üçün səylə çalışırıq.

**Ceyhun MƏMMƏDOV,**
*rektor*

# Nə üçün Aİİ?





- Dünya standartlarına cavab verən yüksək təhsil imkanları;
- Tədrisin xaricdə təhsil almış yüksəkixtisaslı kadrlar tərəfindən aparılması;
- Müasir tələblərə cavab verən ixtisas proqramları;
- Xarici dillərə yiyələnmə imkanları;
- Xaricdə təhsil imkanları;
- Dövlət sifarişi və dövlət hesabına təhsil;
- Şərq incəsənətinə aid müxtəlif kursların təşkili;
- Zəngin və müasir kitabxana-informasiya mərkəzi;
- Tələbələrə dəstək xidmətləri;
- Əmək bazarına asanlıqla inteqrasiya oluna biləcək peşəkar kadrların hazırlanması;
- Məzunlar üçün yerli və beynəlxalq təşkilatlarda geniş iş imkanları.




XATİRƏ
Lələtəpə

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli 3654 nömrəli “Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında” Sərəncamına əsasən, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldı.

## Tariximiz

İlahiyyat elminin inkişafını təmin etmək və bu sahədə yüksək ixtisaslı kadrların yetişdirilməsinə nail olmaq məqsədilə müstəqil ali təhsil müəssisəsinin yaradılmasına ehtiyac var idi.
İnstitutun yaradılmasında Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi baza rolunu oynayıb. Fakültə 1992/1993-cü tədris ilində Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti və Türkiyə Diyanət Vəqfi arasında bağlanmış müqavilə əsasında təsis olunmuş və 2017-ciilədək Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərmişdir.
2018/2019-cu tədris ilində müvafiq Sərəncamla Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin ləğv edilməsi və Azərbaycan İlahiyyat İnstitutunun strukturuna daxil edilməsi məsələlərinin icrası Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilmişdir.

# Missiyamız

Azərbaycan İlahiyyat İnstitutunun missiyası ali təhsilin bütün səviyyələri üzrə dini fəaliyyətin təşkili sahəsində dərin dini və dünyəvi biliklərə, yüksək intellektə, zəngin dünyagörüşünə malik kadr hazırlığını aparmaq, ali və əlavə təhsil proqramlarını həyata keçirmək, tətbiqi elmi tədqiqatlara rəvac verilməsi istiqamətində fəaliyyət göstərməkdir. Bu məqsədlə xarici təcrübə öyrənilir, dünyanın tanınmış universitetləri ilə əməkdaşlıq qurulur.






# Məqsədimiz

Azərbaycan xalqının tarixi ənənələrinə söykənən, yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə xidmət edən, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin edən müasir ali təhsil müəssisəsi olmaqdır.





# Əsas dəyərlərimiz

Azərbaycan İlahiyyat İnstitutu öz elmi-mədəni, sosial-ictimai və s. fəaliyyətində şəffaflıq, bitərəflik, ictimai məsuliyyət şüuru, yüksək akademik keyfiyyət, tolerantlıq və multikulturalizm dəyərlərini prioritet qəbul edir.

# Akademik təqvim 2018-2019

## Sentyabr

**17-23 sentyabr** – *1-ci tədris (üst) həftəsi*
**24-30 sentyabr** – *2-ci tədris (alt) həftəsi*

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | **15** | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 | | | | | | | |

**15 Sentyabr – Bilik Günü**

## Oktyabr

**1-7 oktyabr** – *3-cü tədris (üst) həftəsi*
**8-14 oktyabr** – *4-cü tədris (alt) həftəsi*
**15-21 oktyabr** – *5-ci tədris (üst) həftəsi 1-ci kollokviumun keçirilməsi*
**22-28 oktyabr** – *6-cı tədris (alt) həftəsi*

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | **20** | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | | | | | | | | | | | |

## Noyabr

**29 oktyabr-4 noyabr** – *7-ci tədris (üst) həftəsi*
**5-11 noyabr** – *8-ci tədris (alt) həftəsi*
**12-18 noyabr** – *9-cu tədris (üst) həftəsi*
2-ci kollokviumun keçirilməsi
**19-25 noyabr** – *10-cu tədris (alt) həftəsi*

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | **9** | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | | | | | | | | | |

**9 Noyabr – Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü**

# Dekabr

**26 noyabr-2 dekabr** – *11-ci tədris (üst) həftəsi*
**3-9 dekabr** – *12-ci tədris (alt) həftəsi*
**10-16 dekabr** – *13-cü tədris (üst) həftəsi*
*3-cü kollokviumun keçirilməsi*
**17-23 dekabr** – *14-cü tədris (alt) həftəsi*
**24-30 dekabr** – *15-ci tədris (üst) həftəsi*

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** | | | | | | |

**31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü**

# Yanvar

**31-6 yanvar** – *1-ci imtahan həftəsi*
**7-13 yanvar** – *2-ci imtahan həftəsi*
**14-20 yanvar** – *3-cü imtahan həftəsi*
**21-27 yanvar** – *4-cü imtahan həftəsi*

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **1** | **2** | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | **20** | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | 31 | | | | | | | | | | |

**1-2 yanvar – Yeni İl bayramı**
**20 Yanvar – Ümumxalq Hüzn Günü**

# Fevral

**28 yanvar-3 fevral** – *5-ci imtahan həftəsi;*
Ötən semestrlərdən qalan akademik borcların təkrar imtahanı;
Cari sessiyadan yaranmış akademik borcların təkrar imtahanı üçün qeydiyyat
**4-10 fevral** – *tətilin 1-ci həftəsi* – Cari sessiyadan yaranmış akademik borcların təkrar imtahanı (o cümlədən, üzrlü səbəbdən imtahanda iştirak etməyənlər);
**11-17 fevral** – *tətilin 2-ci həftəsi*
**18-24 fevral** – *1-ci tədris (üst) həftəsi* – Təcrübənin 1-ci həftəsi (IV tədris ili) üçün

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | | | | | | | | | | |

# Mart

**25 fevral-3 mart** – *2-ci tədris (alt) həftəsi* – Təcrübənin 2-ci həftəsi (IV tədris ili) üçün
**4-10 mart** – *3-cü tədris (üst) həftəsi* – Təcrübənin 3-cü həftəsi (IV tədris ili) üçün
**11-17 mart** – *4-cü tədris (alt) həftəsi* – 1-ci kollokviumun keçirilməsi – Təcrübənin 4-cü həftəsi (IV tədris ili) üçün
**18-24 mart** – *5-ci tədris (üst) həftəsi* – Təcrübənin 5-ci həftəsi (IV tədris ili) üçün
**25-31 mart** – *6-cı tədris (alt) həftəsi* – Təcrübənin 6-cı həftəsi (IV tədris ili) üçün

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | **8** | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | **20** | **21** | **22** | **23** | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 | | | | | | | |

**8 Mart – Beynəlxalq Qadınlar Günü**
**20-24 Mart – Novruz Bayramı**

# Aprel

**1-7 aprel** – *7-ci tədris (üst) həftəsi* – Təcrübənin 7-ci həftəsi (IV tədris ili) üçün
**8-14 aprel** – *8-ci tədris (alt) həftəsi* – Təcrübənin 8-ci həftəsi (IV tədris ili) üçün
**15-21 aprel** – *9-cu tədris(üst) həftəsi* – 2-ci kollokviumun keçirilməsi – Təcrübənin 9-cu həftəsi (IV tədris ili) üçün
**22-28 aprel** – *10-cu tədris (alt) həftəsi* – Təcrübənin 10-cu həftəsi (IV tədris ili) üçün

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | | | | | | | | | | | | |

# May

**29 aprel-5 may** – *11-ci tədris (üst) həftəsi* – Təcrübənin 11-ci həftəsi (IV tədris ili) üçün
**6-12 may** – *12-ci tədris həftəsi* – Təcrübənin 12-ci həftəsi (IV tədris ili) üçün
**13-19 may** – *13-cü tədris (üst) həftəsi* – 3-cü kollokviumun keçirilməsi – Təcrübənin 13-cü həftəsi (IV tədris ili) üçün
**20-26 may** – *14-cü tədris həftəsi* – Təcrübənin 14-cü həftəsi (IV tədris ili) üçün

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | **9** | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | **28** | 29 | 30 | | | | | | | | | | |

**9 May – faşizm üzərində Qələbə Günü**
**28 May – Respublika Günü**

# İyun

**27 may-2 iyun** – *15-ci tədris (üst) həftəsi* – YDA-ya hazırlığın 1-ci həftəsi
**3-9 iyun** – *1-ci imtahan həftəsi* – YDA-ya hazırlığın 2-ci həftəsi
**10-16 iyun** – *2-ci imtahan həftəsi* – YDA-ya hazırlığın 3-cü həftəsi
**17-23 iyun** – *3-cü imtahan həftəsi* – YDA-ya hazırlığın 4-cü həftəsi
**24-30 iyun** – *4-cü imtahan həftəsi* – YDA-ya hazırlığın 5-ci həftəsi

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | **15** | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | **26** | 27 | 28 | 29 | 30 | | | | | | | |

**15 İyun – Azərbaycan xalqının Milli Qurtuluş Günü**
**26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü**

# İyul

**1-7 iyul** – *5-ci imtahan həftəsi*
Ötən semestrlərdən qalan akademik borcların təkrar imtahanı;
YDA-ya hazırlığın 6-cı həftəsi
Cari sessiyadan yaranmış akademik borcların təkrar imtahanı üçün qeydiyyat.
**8-14 iyul –** *yay semestrinə hazırlıq*
Cari sessiyadan yaranmış akademik borcların təkrar imtahanı (o cümlədən, üzrlü səbəbdən imtahanda iştirak etməyənlər);
YDA həftəsi
**15-21 iyul** – *yay semestrinin 1-ci həftəsi*
**22-28 iyul** – *yay semestrinin 2-ci həftəsi*

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 4 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | 31 | | | | | | | | | | |

# Avqust

**29 iyul-4 avqust** – *yay semestrinin 3-cü həftəsi*
**5-9 avqust** – *yay semestrinin 4-cü həftəsi*
**10-16 avqust** – *yay semestrinin 5-ci həftəsi*
**17-23 avqust** – *yay semestrinin imtahan həftəsi*

| B.e | Ç.a | Ç | C.a | C | Ş | B | B.e | Ç.a | Ç | C.a | C | Ş | B |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | 31 | | | | | | | | |



# AKADEMİK SİYASƏT

## Kredit sistemi ilə tədrisin təşkili qaydaları

Tədris ilini iki semestr təşkil edir:

- payız semestri;
- yaz semestri.

Bundan əlavə, yay tətili müddətində yay semestri (altı həftədən çox olmayaraq) də təşkil oluna bilər. Ali təhsilin hər iki səviyyəsində əyani təhsilalma forması üzrə tədris ili 40 həftədən (hər semestr 20 həftədən) ibarətdir. 20 həftənin 15 həftəsini tədris, 5 həftəsini imtahan sessiyası təşkil edir.

Tələbəyə hər semestr üzrə 30 kredit verilməsi müəyyənləşdirilir. Bundan əlavə, müvəffəqiyyətlə təhsil alan (ayrı-ayrı 4 fəndən göstəricisi 81-100 bal arasında olan) və ya akademik borcu olanlara hər semestrdə cəmi 10 kreditdən çox olmamaq şərti ilə fənlər seçməyə icazə verilir. Hər iki halda tələbənin götürə biləcəyi fənlərin həcmi bir semestrdə 40 kreditdən çox olmamalıdır. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir.




L-378

## Kreditlər tələbənin aşağıdakı fəaliyyəti üzrə müəyyənləşdirilir:

- Auditoriya (mühazirə, seminar, praktik məşğələlər) dərslərində iştirak etməsi;
- Auditoriyadankənar – tələbənin müstəqil və müəllimin rəhbərliyi ilə sərbəst işi;
- Təcrübələrdə iştirak etməsi;
- Kurs işlərinin, layihələrin hazırlanması və müdafiəsi;
- İmtahanlara hazırlığı və imtahanları verməsi;
- Yekun Dövlət Attestasiyasına hazırlıq və buraxılış imtahanı verməsi.



# Ali təhsil səviyyələri

**Bakalavriat (240 kredit)**

*İxtisasın adı və şifri:*

**050214** Dinşünaslıq
**050217** İslamşünaslıq

**Magistratura (120 kredit)**

*İxtisasın adı və şifri:*

**060214** Dinşünaslıq

*İxtisaslaşmalar:*

- İslamşünaslıq
- Dinlərin tarixi
- Dinin psixologiyası
- Dinin fəlsəfəsi
- Dinin sosiologiyası

**Doktorantura**

- Dinşünaslıq
- Dinin tarixi və fəlsəfəsi

**Əlavə təhsil**

- Dinşünaslıq
- İslamşünaslıq

**Qeyd:** Hazırda mütəxəssis hazırlığı bakalavriat və magistratura səviyyələri üzrə aparılır. Növbəti illərdə doktoranturaya qəbul və əlavə təhsilin təşkili nəzərdə tutulur.



# İxtisas proqramlarına qoyulan tələblər

*Bakalavriat səviyyəsi üzrə təhsil proqramları aşağıdakı 3 fənn bölümündən ibarətdir:*

**1. Humanitar fənlər bölümü (30 kredit)**

Humanitar fənlər bölümü sosial fəaliyyətin müxtəlif sahələrində mövcud problemləri və prosesləri araşdırmağı təmin etməlidir. Bu bölümdə Xarici dil, Azərbaycan tarixi, Azərbaycan dili və nitq mədəniyyəti fənlərinin tədrisi məcburidir.

**2. İxtisasın peşə hazırlığı fənləri bölümü (180 kredit)**

Bu bölüm ixtisasa dair standart və qeyri-standart məsələləri həll etmək üçün lazımi bilik, bacarıq və vərdişlərin əldə olunmasını təmin etməlidir. Həmçinin burada tələbələrə peşə maraqlarını təmin etmək məqsədilə ixtisasın peşə hazırlığı üzrə seçmə fənlər təklif olunur ki, bu da bölümün 60 kreditini təşkil edir.





**3. Təcrübələr və Yekun Dövlət Attestasiyası bölümü (30 kredit)**

**a.** Təcrübələr buraxılış ili tələbələri üçün nəzərdə tutulub. Təcrübənin müddəti 14 həftədən və 21 kreditdən ibarətdir. Təcrübələrin, adətən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda, həmçinin dini və elmi müəssisələrdə keçirilməsi planlaşdırılır.

**b.** Yekun Dövlət Attestasiyası (YDA).Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulan cari attestasiyalardan (fənlər üzrə attestasiyalarda) müvəffəqiyyətlə keçmiş tələbələr Yekun Dövlət Attestasiyasına buraxılırlar. YDA-nın növü (yekun buraxılış imtahanı və ya buraxılış işi) İnstitut tərəfindən müəyyənləşdirilir. YDA bütün təhsil alanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 6 həftədən (9 kredit) ibarətdir.

*Magistratura səviyyəsi üzrə təhsil proqramları aşağıdakı 3 fənn bölümündən ibarətdir:*

**1. Humanitar fənlər bölümü (14 kredit):**

**a.** Xarici dil fənni (6 kredit);
**b.** Ali məktəb pedaqogikası (4 kredit);
**c.** Psixologiya (2 kredit);
**d.** Seçmə fənn (2 kredit).

**2. İxtisaslaşma fənlər bölümü (76 kredit):**

**a.** İxtisaslaşmanın müasir problemləri (4 kredit);
**b.** İxtisaslaşmanın tarixi və metodologiyası (2 kredit);
**c.** Elmi-tədqiqat metodları (4 kredit);
**d.** İxtisaslaşmaya ayrılan fənlər (42 kredit);
**e.** Seçmə fənn (24 kredit).

**3. Elmi-tədqiqat işləri bölümü (30 kredit):**

**a.** Elmi-tədqiqat təcrübəsi (6 kredit);
**b.** Elmi-pedaqoji təcrübə (6 kredit);
**c.** Magistr dissertasiyasının hazırlanması və müdafiəsi (18 kredit).



# Qiymətləndirmə sistemi

*Qiymətləndirmə sistemi 2 hissədən ibarətdir:*

**Cari qiymətləndirmə** - fənn üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsidir (50 bala qədər):

**10 bal** – dərslərə davamiyyət

**10 bal** – tələbənin sərbəst işi

**20 bal** – seminar (məşğələ)

**10 bal** – kurs işinin hazırlanması və müdafiəsi

**Qeyd:** Əgər fənnin tədrisi yalnız mühazirə, seminar (məşğələ) şəklində nəzərdə tutularsa, bu zaman davamiyyətə və sərbəst işə ayrılmış ballar istisna olmaqla, qalan 30 bal tədrisin bu növ göstəricilərinə görə hesablanır.

**Aralıq qiymətləndirmə** - fənn üzrə tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsidir (50 bala qədər).



Təhsil proqramının mənimsənilməsində xüsusi nailiyyət əldə etmiş, təhsil müddətində “yaxşı” qiymətlərinin sayı bütün qiymətlərinin (A, B, C) sayının 25%-dən çox olmamaqla, imtahanlardan yalnız “yaxşı” və “əla”, Yekun Dövlət Attestasiyası sınaqlarından isə yalnız “əla” qiymətlər almış məzunlara Fərqlənmə diplomu verilir.

- **51 baldan aşağı – “F” (qeyri-kafi)**
- **51-60 bal – “E” (qənaətbəxş);**
- **61-70 - “D” (kafi)**
- **71-80 – “C” (yaxşı);**
- **81-90 – “B” (çox yaxşı);**
- **91-100 – “A” (əla).**



# İxtisas proqramları

## Bakalavr ixtisas proqramları

**Dinşünaslıq ixtisası üzrə**

# I tədris ili

| № | Fənnin şifri | Fənnin adı | Kreditin sayı | Prerekvizit | Semestr |
|---|---|---|---|---|---|
| 1 | İPF-B01 | Ərəb dili-1 (Ərəb dilinin əlifba və fonetikası, mətnlərlə bağlı qrammatik izahat) | 8 | | Payız -1 |
| 2 | İPF-B02 | Qurani-Kərim -1 (Qurani-Kərim əlifbası) | 6 | | Payız -1 |
| 3 | İPF-B03 | İnformatika və kompüter texnologiyası | 4 | | Payız -1 |
| 4 | İPF-B10 | Multikulturalizmə giriş | 4 | | Payız -1 |
| 5 | İPF-B04 | İslam tarixi-1 (İslam tarixinə giriş) | 5 | | Payız -1 |
| 6 | İPF-B22 | Mülki müdafiə | 3 | | Payız -1 |
| 7 | İPF-B01.1 | Ərəb dili-2 (Ərəb dilinin nitq hissələri və sadə cümlələr | 6 | İPF-B01 | Yaz - 2 |
| 8 | İPF-B02.1 | Qurani-Kərim-2 (Qurani-Kərim təcvidi) | 6 | İPF-B02 | Yaz - 2 |
| 9 | İPF-B04.1 | İslam tarixi-2 | 5 | | Yaz - 2 |
| 10 | HF-B03 | Azərbaycan dili və nitq mədəniyyəti | 5 | | Yaz - 2 |
| 11 | İPFS-B01 | İxtisasın 1-ci seçmə fənn bloku | 4 | | Yaz - 2 |
| 12 | İPFS-B02 | İxtisasın 2-ci seçmə fənn bloku | 4 | | Yaz - 2 |

# II tədris ili

| № | Fənnin şifri | Fənnin adı | Kreditin sayı | Prerekvizit | Semestr |
|---|---|---|---|---|---|
| 1 | İPF-B01.2 | Ərəb dili-3 (Ərəb dilinin köməkçi nitq hissələri və morfoloji xüsusiyyətləri) | 6 | İPF-B01.1 | Payız -3 |
| 2 | İPF-B14 | Din sosiologiyası | 4 | | Payız -3 |
| 3 | İPF-B16 | Yəhudilik və xristianlıq | 4 | | Payız -3 |
| 4 | İPF-B18 | Müqəddəs kitabların müqayisəsi | 4 | | Payız -3 |
| 5 | HFS- B04.1 | HF seçmə fənn bloku | 6 | | Payız -3 |
| 6 | İPFS-B11 | İxtisasın 11-ci seçmə fənn bloku | 6 | | Payız -3 |
| 7 | İPF-B08 | Müqayisəli teologiya | 4 | | Yaz - 4 |
| 8 | İPF-B17 | Hind-Çin dinləri | 5 | | Yaz - 4 |
| 9 | İPF-B20 | Qərbdə İslam tədqiqatları | 4 | | Yaz - 4 |
| 10 | İPFS-B09 | İxtisasın 9-cu seçmə fənn bloku | 4 | | Yaz - 4 |
| 11 | İPFS-B10 | İxtisasın 10-cu seçmə fənn bloku | 4 | | Yaz - 4 |
| 12 | İPFS-B07 | İxtisasın 7-ci seçmə fənn bloku | 4 | | Yaz - 4 |
| 13 | İPFS-B08 | İxtisasın 8-ci seçmə fənn bloku | 5 | | Yaz - 4 |

# III tədris ili

| № | Fənnin şifri | Fənnin adı | Kreditin sayı | Prerekvizit | Semestr |
|---|---|---|---|---|---|
| 1 | HF-B02 | Xarici dil-1 (İngilis dili-1) | 6 | | Payız -5 |
| 2 | İPF-B15 | Əxlaq fəlsəfəsi | 4 | | Payız -5 |
| 3 | İPF-B19 | Yeni dini hərəkatlar | 4 | | Payız -5 |
| 4 | İPF-B12 | Din psixologiyası | 4 | | Payız -5 |
| 5 | İPFS-B03 | İxtisasın 3-cü seçmə fənn bloku | 6 | | Payız -5 |
| 6 | İPFS-B05 | İxtisasın 5-ci seçmə fənn bloku | 6 | | Payız -5 |
| 7 | HF-B01 | Azərbaycan tarixi | 6 | | Yaz - 6 |
| 8 | HF-B02.1 | Xarici dil-2 (İngilis dili-2) | 7 | HF-B02 | Yaz - 6 |
| 9 | İPF-B13 | Din fəlsəfəsi | 4 | | Yaz - 6 |
| 10 | İPF-B11 | Azərbaycanda dini cərəyanlar | 4 | | Yaz - 6 |
| 11 | İPF-B21 | Sosial elmlərin metodologiyası | 4 | | Yaz - 6 |
| 12 | İPFS-B04 | İxtisasın 4-cü seçmə fənn bloku | 5 | | Yaz - 6 |

# IV tədris ili

| № | Fənnin şifri | Fənnin adı | Kreditin sayı | Prerekvizit | Semestr |
|---|---|---|---|---|---|
| 1 | İPF-B05 | İslam hüququ | 4 | | Payız - 7 |
| 2 | İPF-B06 | Müqəddəs mətnlərin hermenevtikası | 4 | | Payız - 7 |
| 3 | İPF-B07 | Elm və din | 6 | | Payız - 7 |
| 4 | İPF-B09 | Mistisizm | 4 | | Payız - 7 |
| 5 | İPFS-B12 | İxtisasın 12-ci seçmə fənn bloku | 6 | | Payız - 7 |
| 6 | İPFS-B06 | İxtisasın 6-cı seçmə fənn bloku | 6 | | Payız - 7 |
| 7 | | Təcrübə | 21 | | Yaz - 8 |
| 8 | | Yekun Dövlət Attestasiyası | 9 | | Yaz - 8 |
| | | **Ümumi** | **240 kredit** | | |

# İxtisas proqramları
## Bakalavr ixtisas proqramları

**İslamşünaslıq ixtisası üzrə**



# I tədris ili

| № | Fənnin şifri | Fənnin adı | Kreditin sayı | Prerekvizit | Semestr |
|---|---|---|---|---|---|
| 1 | HF-B02 | Xarici dil-1 (İngilis dili-1) | 7 | | Payız - 1 |
| 2 | İPF-B01 | Ərəb dili-1 (Ərəb dilinin əlifba və fonetikası, mətnlərlə bağlı qrammatik izahat) | 6 | | Payız - 1 |
| 3 | İPF-B02 | Qurani-Kərim -1 (Qurani-Kərim əlifbası) | 8 | | Payız - 1 |
| 4 | İPF-B04 | Əqaid | 4 | | Payız - 1 |
| 5 | İPF-B06 | Siyər | 5 | | Payız - 1 |
| 6 | HF-B02.1 | Xarici dil -2 (İngilis dili-2) | 6 | HF-B02 | Yaz - 2 |
| 7 | İPF-B01.1 | Ərəb dili -2 (Ərəb dilinin nitq hissələri və sadə cümlələr) | 6 | İPF-B01 | Yaz - 2 |
| 8 | İPF-B02.1 | Qurani-Kərim-2 (Qurani-Kərim təcvidi) | 8 | İPF-B02 | Yaz - 2 |
| 9 | İPF-B05 | Elmihal | 6 | | Yaz - 2 |
| 10 | İPF-B14 | Multikulturalizmə giriş | 4 | | Yaz - 2 |

## II tədris ili

| № | Fənnin şifri | Fənnin adı | Kreditin sayı | Prerekvizit | Semestr |
|---|---|---|---|---|---|
| 1 | İPF-B01.2 | Ərəb dili -3 (Ərəb dilinin köməkçi nitq hissələri və morfoloji xüsusiyyətləri) | 4 | İPF-B01.1 | Payız - 3 |
| 2 | İPF-B02.2 | Qurani-Kərim -3 (Qurani-Kərim qiraəti-1) | 6 | İPF-B02.1 | Payız - 3 |
| 3 | İPF-B03 | İnformatika və kompüter texnologiyası | 4 | | Payız - 3 |
| 4 | İPF-B07 | İslam tarixi-1 ( VII-XIII əsrlər) | 4 | | Payız - 3 |
| 5 | İPF-B18 | Mülki müdafiə | 3 | | Payız - 3 |
| 6 | İPF-B16 | İslam əxlaqı | 4 | | Payız - 3 |
| 7 | İPFS-B05 | İxtisasın 1-ci seçmə fənn bloku | 5 | | Payız - 3 |
| 8 | HF-B03 | Azərbaycan dili və nitq mədəniyyəti | 5 | | Yaz - 4 |
| 9 | İPF-B01.3 | Ərəb dili -4 (Ərəb dilində mürəkkəb cümlələr) | 4 | İPF-B01.2 | Yaz - 4 |
| 10 | İPF-B02.3 | Qurani-Kərim-4 (Qurani-Kərim qiraəti-2) | 6 | İPF-B02.2 | Yaz - 4 |
| 11 | İPF-B07.1 | İslam tarixi-2 (XIV-XX əsrlər) | 4 | | Yaz - 4 |
| 12 | İPFS-B01 | İxtisasın 1-ci seçmə fənn bloku | 5 | | Yaz - 4 |
| 13 | İPFS-B07 | İxtisasın 7-ci seçmə fənn bloku | 6 | | Yaz - 4 |

# III tədris ili

| № | Fənnin şifri | Fənnin adı | Kreditin sayı | Prerekvizit | Semestr |
|---|---|---|---|---|---|
| 1 | İPF-B15 | İslam məzhəbləri tarixi | 4 | | Payız - 5 |
| 2 | HFS-B04.1 | HF seçmə fənn bloku | 6 | | Payız - 5 |
| 3 | İPFS-B03 | İxtisasın 3-cü seçmə fənn bloku | 4 | | Payız - 5 |
| 4 | İPFS-B04 | İxtisasın 4-cü seçmə fənn bloku | 4 | | Payız - 5 |
| 5 | İPFS-B05 | İxtisasın 5-ci seçmə fənn bloku | 5 | | Payız - 3 |
| 6 | İPFS-B08 | İxtisasın 8-ci seçmə fənn bloku | 6 | | Payız - 5 |
| 7 | İPFS-B09 | İxtisasın 9-cu seçmə fənn bloku | 6 | | Payız - 5 |
| 8 | İPF-B10 | Təfsir | 4 | | Yaz - 6 |
| 9 | İPF-B12 | Kəlam | 6 | | Yaz - 6 |
| 10 | İPF-B09 | İslam hüququ | 4 | | Yaz - 6 |
| 11 | İPF-B17 | Dini xitabət və peşə hazırlığı | 4 | | Yaz - 6 |
| 12 | İPF-B11 | Hədis | 4 | | Yaz - 6 |
| 13 | İPFS-B02 | İxtisasın 2-ci seçmə fənn bloku | 4 | | Yaz - 6 |
| 14 | İPFS-B10 | İxtisasın 10-cu seçmə fənn bloku | 4 | | Yaz - 6 |

# IV tədris ili

| № | Fənnin şifri | Fənnin adı | Kreditin sayı | Prerekvizit | Semestr |
|---|---|---|---|---|---|
| 1 | HF-B01 | Azərbaycan tarixi | 6 | | Payız - 7 |
| 2 | İPF-B08 | Təsəvvüf | 4 | | Payız - 7 |
| 3 | İPF-B13 | İslam fəlsəfəsi | 4 | | Payız - 7 |
| 4 | İPFS-B06 | İxtisasın 6-cı seçmə fənn bloku | 6 | | Payız - 7 |
| 5 | İPFS-B11 | İxtisasın 11-ci seçmə fənn bloku | 6 | | Payız -7 |
| 6 | İPFS-B12 | İxtisasın 12-ci seçmə fənn bloku | 4 | | Payız - 7 |
| 7 | | İstehsalat təcrübəsi | 21 | | Yaz - 8 |
| 8 | | Yekun Dövlət Attestasiyası | 9 | | Yaz - 8 |
| | | Ümumi | 240 kredit | | |

# Magistr ixtisas proqramı

## Dinşünaslıq ixtisası üzrə

| № | Fənn bölümünün kodu | Fənnin adı | Fənnin krediti |
|---|---|---|---|
| MHF-B00 | | Humanitar fənlər bölümü | |
| 1. | MHF- B01 | Xarici dil | 6 |
| 2. | MHF- B02 | Ali məktəb pedaqogikası | 4 |
| 3. | MHF- B03 | Psixologiya | 2 |
| 4. | MHFS- B04 | Seçmə fənn | 2 |
| **Ümumi:** | | | **14** |
| MİF- B00 | | İxtisas (ixtisaslaşma) fənlər bölümü | |
| 5. | MİF- B01 | Dinin müasir problemləri | 4 |
| 6. | MİF- B02 | Dinin tarixi və metodologiyası | 2 |
| 7. | MİF- B03 | Elmi-tədqiqat metodları | 4 |
| 8. | MİF- B04 | İxtisaslaşmaya ayrılan fənlər | 42 |
| 9. | MİFS- B05 | Seçmə fənn | 24 |
| **Ümumi:** | | | **76** |
| MET-B00 | | Elmi-tədqiqat işləri (30 kredit) | |
| 10. | MET-B01 | Elmi-tədqiqat təcrübəsi | 6 |
| 11. | MET-B02 | Elmi-pedaqoji təcrübə | 6 |
| 12. | MET-B03 | Magistr dissertasiyasının hazırlanması və müdafiəsi | 18 |
| **Ümumi:** | | | **30** |
| **Cəmi** | | | **120 kredit** |



# İLAHİYYAT FAKÜLTƏSİ

Ötən 25 ildə din sahəsində yüksəkixtisaslı kadrların yetişdirilməsində müstəsna rolu olan fakültə bu müddət ərzində Azərbaycan cəmiyyətinə onlarca alim, mütəxəssis və din xadimi bəxş etmişdir.











Hazırda fakültədə ixtisasla bağlı bütün fənlərin tədrisi elmi dərəcə və adlara yiyələnmiş yerli kadrlar tərəfindən aparılır. Yüksək elmi təfəkkürə malik müəllimlərin rəhbərliyi ilə milli-mədəni irsi anlayıb dəyərləndirə bilən, düzgün dini biliklərə sahib olan, bu sahədə mövcud problemlərə dair həll variantları irəli sürən, əldə etdiyi biliklərlə özünü inkişaf etdirməyə səy göstərən, tədqiqatları ilə elmə töhfə verən, müxtəlif sosial layihələrlə ictimai şüurun formalaşmasında aktiv rol oynayan ilahiyyatçılar yetişdirmək fakültə qarşısında duran ən ümdə vəzifələrdir.

## Fakültənin məzunları karyeralarını müvafiq dövlət qurumları və təşkilatlarda, ali təhsil və elmi-tədqiqat müəssisələrində pedaqoq, dövlət qulluqçusu, tədqiqatçı, din xadimi və digər peşə sahibləri kimi qura bilərlər.

Eyni zamanda, təhsilini yüksək nəticələrlə başa vurmuş məzunlara Azərbaycan İlahiyyat İnstitutu dövlət xətti ilə xarici ölkələrdə təcrübə keçmə və təhsillərini davam etdirmək imkanlarını yaradır.



Fakültədə mütəxəssis və elmi-pedaqoji kadr hazırlığı hazırda iki səviyyədə aparılır:

- Bakalavriat;
- Magistratura.

Qeyd: Yaxın gələcəkdə doktorantura səviyyəsi və əlavə təhsil üzrə qəbul planlaşdırılır.

İlahiyyat fakültəsində bakalavriat səviyyəsində təhsil iki ixtisas üzrə aparılır:

- İslamşünaslıq;
- Dinşünaslıq.

**İslamşünaslıq ixtisası** üzrə standartlara İslam dininin tarixi, sosioloji, psixoloji və dini-fəlsəfi aspektlərdən öyrənilməsini təmin edən fənlər daxil edilmişdir. Burada Qurani-Kərim, Hədis, Təfsir, Kəlam, Fiqh, Təsəvvüf və s. ənənəvi islam elmləri ilə yanaşı, təkcə İslam dinini deyil, ümumilikdə dinləri müxtəlif yönlərdən tədqiq edən Din sosiologiyası, Din psixologiyası, Din fəlsəfəsi, Məzhəblər tarixi, Dinlər tarixi və s. fənlər öz əksini tapmışdır. İslamşünaslıq ixtisasına yiyələnənlərin həm din xadimi, həm də İslam dini üzrə mütəxəssis kimi fəaliyyət göstərməsi nəzərdə tutulmuşdur.

**Dinşünaslıq ixtisası** üzrə standartların hazırlanmasında Azərbaycan reallıqları nəzərə alınmaqla Oksford, Kembric, Stanford, Kaliforniya Dövlət Universiteti və dünyanın digər aparıcı ali təhsil müəssisələrində mövcud olan dini tədqiqatlar bölmələrinin standartlarından da istifadə olunmuşdur. Bu standartlara dünyada mövcud olan dinlərin (İslam, Yəhudilik, Xristianlıq, hind-Çin dinləri) öyrənilməsini nəzərdə tutan fənlər daxil edilmişdir.

Qeyd edək ki, həm İslamşünaslıq, həm də Dinşünaslıq ixtisaslarının standartlarına Multikulturalizm, Azərbaycan tarixi, Psixologiya, Pedaqogika, İnformatika, Fəlsəfə, Məntiq, eləcə də ərəb və ingilis dillərinin öyrənilməsini nəzərdə tutan fənlər də daxil edilmişdir.

Magistratura səviyyəsində kadr hazırlığı Dinşünaslıq ixtisasının aşağıdakı ixtisaslaşmaları üzrə aparılır:

- İslamşünaslıq;
- Dinlərin tarixi;
- Dinin psixologiyası;
- Dinin fəlsəfəsi;
- Dinin sosiologiyası.



# KAFEDRA
# və
# ŞÖBƏLƏR

# İslamşünaslıq kafedrası



İslamşünaslıq kafedrası İslamşünaslıq istiqaməti üzrə dini fəaliyyətin təşkili sahəsində peşəkar kadrların hazırlanmasını təmin edir. Aparıcı ixtisas kafedralarından biridir.

**Kafedranın bakalavriat və magistratura səviyyələrində təklif etdiyi fənlər geniş profilə malikdir:**

- Əqaid;
- Siyər;
- Fiqh üsulu;
- Kəlam;
- Hədis;
- Təfsir;
- İslam hüququ;
- Təsəvvüf;
- İslam əxlaqı və s.

Fənlər peşəkar mütəxəssislər tərəfindən tədris olunur. Fənlərin tədrisinin keyfiyyətini artırmaq, tədris prosesinin səmərəliliyini yüksəltmək üçün müasir təlim texnologiyalarından və metodlarından istifadə olunur.

# Dinşünaslıq kafedrası

Dinşünaslıq kafedrası İnstitutda fəaliyyət göstərən əsas tədris-elmi struktur bölmələrindən biridir.



**Kafedra təhsil pillələri üçün aşağıdakı fənləri təklif edir:**

- Din sosiologiyası;
- Din psixologiyası;
- Din fəlsəfəsi;
- Dinlər tarixi;
- Müqayisəli dinlər tarixi;
- Yəhudilik-Xristianlıq;
- Hind-Çin dinləri;
- Sufi psixologiyası;
- Siyər;
- İslam tarixi və s.

Elmi-pedaqoji kadrların və tədqiqatçıların hazırlanması, ixtisaslarının artırılması, təhsilalanların elmi-tədqiqat fəaliyyətlərinin təşkili, tələbələr arasında tərbiyəvi işlərin aparılması istiqamətində fəaliyyət göstərir.

# Dillər və ictimai fənlər kafedrası

Azərbaycan İlahiyyat İnstitutunun əsas tədris-elmi struktur bölmələrindən biridir.

Dillər və ictimai fənlər kafedrası bakalavr və magistr pillələri üçün nəzərdə tutulmuş aşağıdakı fənlərin tədrisini həyata keçirir:

- Azərbaycan dili və nitq mədəniyyəti;
- Xarici dillər (ərəb, fars, ingilis və s.);
- Azərbaycan tarixi;
- İnformatika və kompüter texnologiyası;
- Mülki müdafiə;
- Multikulturalizmə giriş;
- İslam ölkələri tarixi və coğrafiyası;
- Məntiq;
- Fəlsəfə və s.

Kafedra müxtəlif sahələr üzrə elmi-pedaqoji kadrların hazırlanması, tədris-metodiki vəsaitlərin nəşri, tələbələrin elmi-tədqiqat fəaliyyətlərinin təşkili, təlim-tərbiyə işlərinin aparılması istiqamətində mühüm elmi fəaliyyət göstərir.



# Tədris şöbəsi

Tədris şöbəsi İnstitutun aparıcı şöbələrindən biridir. İnstitutda təhsil göstəricilərinin dünya standartlarına cavab verməsini təmin etmək üçün şöbə təhsil proqramlarının keyfiyyətinə, təlim prosesində yeni təlim texnologiyalarının tətbiqinə, müəllimlərin fəaliyyətinin qiymətləndirilməsinə, tələbələrin bilik və bacarıq səviyyəsinin yüksəldilməsinə nəzarəti həyata keçirir. Eyni zamanda, fakültə və kafedralarda tədrisin





keyfiyyətinin təminatı məsələlərinin təşkilinə rəhbərlik edir, təhsildə şəffaf idarəetmə modelinə nail olmaq üçün tələbələrlə görüşərək onlarla sorğuların keçirilməsini təşkil edir. İnstitutda təhsilin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsinin və onun dünyanın mütərəqqi təhsil sisteminə inteqrasiyasının təmin edilməsi şöbənin əsas missiyasıdır.





# Magistratura və doktorantura şöbəsi

Ali təhsilin magistratura və doktorantura səviyyəsi üzrə kadrların hazırlanmasının idarə edilməsi, nəzarəti və koordinasiyası Magistratura və doktorantura şöbəsi tərəfindən həyata keçirilir. Şöbə, eyni zamanda, kadr hazırlığı sahəsini genişləndirmək, habelə tədqiqat işlərinin təkmilləşdirilməsi və idarə edilməsi məqsədilə yaradılmışdır. Magistratura və doktorantura şöbəsi tədqiqatların uğurla həyata keçirilməsi üçün zəruri hallarda magistr, doktorant və dissertantların müvafiq beynəlxalq və respublika elmi konfranslarında iştirakını təmin edir.



# BEYNƏLXALQ ƏLAQƏLƏR və ƏMƏKDAŞLIQ

*Azərbaycan İlahiyyat İnstitutu beynəlxalq əlaqələrin inkişafına xüsusi diqqət ayırır.*

İnstitut bu istiqamətdə xarici ölkələrin Azərbaycandakı səfirlikləri, mədəniyyət və təhsil mərkəzləri, həmçinin digər təşkilat və nümayəndəliklərlə sıx əməkdaşlıq qurur, rəsmi görüşlər, mədəniyyət və təhsil sahəsində konfrans, seminar, “dəyirmi masa”, debatlar təşkil edir, o cümlədən Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, onun tarix və mədəniyyətinin dünyaya tanıdılması məqsədi ilə müxtəlif beynəlxalq tədbirlər həyata keçirir.





Qeyd olunanlarla yanaşı, xaricdə fəaliyyət göstərən nüfuzlu universitet və elmi-tədqiqat müəssisələri ilə ikitərəfli əlaqələrin qurulması, beynəlxalq mübadilə proqramlarında iştirak, dünya təhsil sisteminə inteqrasiya və təhsil sahəsində qabaqcıl ölkələrin təcrübəsinin AİI-də tətbiqi İnstitut üçün prioritet məsələlər sayılır.







## İnstitutun əməkdaşlıq etdiyi xarici qurumlar:

- Ankara Universiteti
- İstanbul Universiteti
- İstanbul "29 Mayıs" Universiteti
- Mərmərə Universiteti
- İsveçrənin Friburq Universiteti
- Ayn Şəms Universiteti
- Omsk Dövlət Universiteti
- Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzi
- Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA)
- Yunus Əmrə İnstitutu Bakı Türk Mədəniyyət Mərkəzi
- İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzi
- İslam Tarixi, İncəsənəti və Mədəniyyəti üzrə Araşdırmalar Mərkəzi (IRCICA)


acer



# TƏLƏBƏLƏRƏ DƏSTƏK SİSTEMİ

## Tələbə elektron məlumat bazası

Elektron məlumat bazası tələbələrə aid bütün şəxsi məlumatları saxlayır və müxtəlif təyinatlı statistikalardan istifadə etmək imkanı verir.
Baza tələbəyə aid aşağıdakı əməliyyatları yerinə yetirmək imkanına malikdir:

- Fənlərə qeydiyyat;
- İmtahan nəticələrinin daxil edilməsi;
- Arxivləşdirmə;
- Məzunluq və diplom əməliyyatları;
- Nizam-intizam tədbirləri;
- Tələbələrlə bağlı verilən əmrlərin daxil edilməsi;
- Sorğuların keçirilməsi;
- Təqaüd alacaq tələbələrin müəyyənləşdirilməsi və s.

# Tələbə Gənclər Təşkilatı

Azərbaycan İlahiyyat İnstitutunun Tələbə Gənclər Təşkilatı ümumi maraqlar, könüllülük, iştirakçıların hüquq bərabərliyi prinsipləri əsasında yaradılan qeyri-kommersiya təşkilatıdır.

TGT-nin əsas məqsədi dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində tələbələrin maraqlarını təmsil və müdafiə etmək, respublikanın ictimai-siyasi, mədəni, sosial, iqtisadi həyatında onların fəal iştirakını təmin etməkdir.

## Təşkilatın əsas vəzifələri aşağıdakılardır:

- Tələbələrin sosial problemlərinin həlli istiqamətində işin həyata keçirilməsi;
- Tələbələr arasında maarifləndirmə işinin aparılması;
- Tələbələrin asudə vaxtının səmərəli təşkil edilməsi;
- Tələbələrin hüquqlarının təmin edilməsi;
- Respublikanın daxilində və xaricində keçirilən müsabiqələrdə, olimpiadalarda, sərgilərdə, festivallarda istedadlı və yaradıcı tələbələrin iştirakının təmin edilməsi;
- Tələbələrin iştirakı ilə müsabiqələrin, seminarların, festivalların, forumların, toplantıların, sərgilərin, aksiyaların, "dəyirmi masa"ların, elmi konfransların, təlim kurslarının, kütləvi təbliğat kampaniyalarının, diskussiya klublarının, müzakirələrin, simpoziumların, görkəmli şəxslərlə görüşlərin təşkil edilməsi;
- Tələbələr arasında narkomaniya, alkoqolizm, cinayətkarlıq və digər neqativ meyillərə qarşı profilaktik tədbirlərin həyata keçirilməsi.

## Tələbə Elmi Cəmiyyəti

Azərbaycan İlahiyyat İnstitutunun Tələbə Elmi Cəmiyyəti elmi-tədqiqat və elmi-təşkilati işlərdə fəal iştirak edən ali təhsil pilləsinin bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbələrin könüllü ictimai təşkilatıdır. TEC-in əsas məqsədi alitəhsilli mütəxəssislərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi tədbirlərin həyata keçirilməsi, elmi-texniki potensialın qorunub saxlanılması və təhsilalanların elmi-tədqiqat fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında İnstitutun işinə kömək etməkdən ibarətdir.



## Tələbələrə maddi dəstək

Aİİ-də təhsilin bütün pillələrində təhsil dövlət sifarişi və dövlət hesabına həyata keçirilir. Tələbələr təhsil aldıqları müddətdə müxtəlif adlı təqaüdlərlə təmin olunurlar. Eyni zamanda, Aİİ-də tələbələrin digər xərclərini (qidalanma, geyim, yataqxana və s.) qarşılamaq üçün xüsusi tələbə təqaüdləri də nəzərdə tutulub. Dərslərini müvəffəqiyyətlə oxuyan, İnstitutun sosial və ictimai fəaliyyətində, təşkil etdyi aksiya və tədbirlərdə fəal iştirak edən tələbələr rəhbərlik tərəfindən mükafatlandırılır, müxtəlif sertifikat və diplomlarla təltif olunurlar.




AZƏRBAYCAN
İLAHİYYAT
İNSTİTUTU


AZƏRBAYCAN
İLAHİYYAT
İNSTİTUTU
YÜKSƏK TƏHSİLİN
YENİ ÜNVANI
Aİİ-də təhsilin üstünlükləri:
İxtisaslar:




FELSEFE ANSİKLOPEDİSİ
FELSEFE ANSİKLOPEDİSİ
FELSEFE ANSİKLOPEDİSİ

# KİTABXANA-İNFORMASİYA MƏRKƏZİ

Azərbaycan İlahiyyat İnstitutunun Kitabxana-informasiya mərkəzinin fondu Azərbaycan, rus, türk, ərəb və ingilis dillərində dini, bədii, elmi ədəbiyyatlarla yanaşı, dərsliklər, dövri nəşrlər, dissertasiya, avtoreferat və s. informasiya resursları ilə zəngindir.

AİI-nin Kitabxana fondunun yenilənməsi Kitabxana-informasiya mərkəzinin respublikanın bir çox kitabxanaları, təşkilatları, kitab evləri ilə geniş əlaqələr qurması, həmçinin İnstituta təşrif buyuran xarici ölkə səfirləri, görkəmli şəxslər, tanınmış ədiblər və digər qonaqların hədiyyə olaraq kitabxanaya nəşrlər təqdim etməsi hesabına həyata keçir.

Əsas informasiya mərkəzi kimi fəaliyyət göstərən kitabxana, nəinki İnstitut əməkdaşları və tələbələrinə, eyni zamanda, kənardan gələn oxuculara da xidmət edir. Qeyd edək ki, kitabxana tələbələrə dərslik və dərs vəsaitlərinin paylanılmasını həyata keçirir.

# TƏLƏBƏ HƏYATI

AİI-də tədrisin keyfiyyəti ilə yanaşı, tələbələrin sosial həyatının təşkilinə də böyük əhəmiyyət verilir. Tələbə həyatının səmərəli və maraqlı keçməsi üçün tələbələrin İnstitut daxilində və xaricində təşkil olunan müxtəlif seminar, təlim, kurs, dərnək, ekskursiya, tur və gəzintilərdə iştirakı təmin olunur.



İxtisas proqramlarında nəzərdə tutulan məcburi dil fənlərindən əlavə, tələbələr üçün fars, rus və digər dil kursları təşkil olunur.

Tələbələrə, eyni zamanda Şərq incəsənətinin müxtəlif sahələrinə aid kurslar da təklif olunur:

- Xəttatlıq;
- Əbru;
- Təzhib;
- Musiqi.



Tələbələrin fərdi qabiliyyətlərinin, şəxsi keyfiyyətlərinin və dünyagörüşlərinin formalaşması üçün İnstitut mütəmadi olaraq sosioloq, psixoloq, yerli və beynəlxalq arenada nüfuz qazanmış peşəkarlarla görüşlər keçirir.




AZƏRBAYCAN
İLAHİYYAT
İNSTİTUTU
YÜKSƏK TƏHSİLİN
YENİ ÜNVANI




Azərbaycan
İlahiyyat İnstitutu
Hasan Majidov St
Hasan Majidov St
Hasan Majidov St
Zerdabi Ave
Zerdabi Ave
Zerdabi Ave
Akim Abbasov St
Zahid Khalilov St
Zahid Khalilov St
Ahmad Jamil St
Ahmad Jamil St
Ahmad Jamil St
Hüseyn Cavid Prospekti
Mirali Seyidov
Mirali Seyidov
Abdurrahim Bey Hagverdiyev St
Behbud Shahtakhtinski
Mehdi Mammadov
Mahammad Huseyn Shahriyar
Matbuat Prospekti

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi**

**Azərbaycan İlahiyyat İnstitutu**

AZ1141, Bakı şəhəri,
Əhməd Cəmil küç., 41A,

info@ait.edu.az

+994 12 510 65 45

İlahiyyatinstitutu

İlahiyyatinstitutu

azeilahiyyat